# Filmoqrafiya

## Ssenari müəllifi və quruluşçu rejissor olduğu bədii filmlər

1. Dəniz (1965)
2. Sözsüz mahnı (film, 1972) (ssenari müəllifi) (quruluşçu rejissor)
3. Evləri köndələn yar (film, 1982) (ssenari müəllifi)




Film-tamaşada sevgililərin elçiliyinin səhv salınması nəticəsində hadisələr dolaşığa düşür. Əsərin dramaturji ziddiyyətini nişan, toy kimi el adətlərinə müxtəlif münasibətlər təşkil etsə də tamaşada hadisələrin deyil, personajların ziddiyyətləri ön plana çəkilir.

4. İmtahan (film, 1987) (ssenari müəllifi);

Filmin mərkəzində Qiyas müəllimlə (Hamlet Xanızadə) onun əmisi, professor Bəhramın (Rauf Atakişiyev) həyata baxışlarındakı ziddiyyətlər üzərində qurulmuş süjet durur. Bu əks xarakterli adamların mənəvi keyfiyyətlərinin psixoloji təhlili, Qiyasın ağarəfilərə, şamxallara, firuzlara qarşı kəskin müübarizəsi, onun halallıq, paklıq, düzlük kimi mənəvi amillərə əsaslanan həyat fəlsəfəsi, bizim günlərin abhavası filmdə öz əksini tapmışdır.




Film azpersonajlıdır. Lakin qəhrəmanların hər biri öz xarakterinə görə çox mürəkkəbdir.

**5.** Əlaqə (film, 1989) (ssenari müəllifi);



"Yerdənkənar varlıqlarla səylə əlaqə axtarırlar, bəs bizim aramızda, Yer kürəsinin adamları arasında əlaqə varmı?.." Personajların birinin verdiyi bu sual filmin müəlliflərini düşündürür və onlar "belə bir bəşəri, millətlərarası əlaqələr barədə həmişəkindən daha çox düşünməliyik" mesajını tamaşaçılara çatdırmağa çalışırlar.

Filmdə amansızlığın necə hərc-mərcliyə, zorakılığa, planetdə bütün varlığın məhvinə gətirib çıxardığı göstərilmişdir. Burada adamlara bir daha xatırladılır ki, əlaqələrin olmaması dəhşətli bəladır, qlobal qəzalar doğurur. Amma film ümid hissilə sona çatır. Müsəlman və xristian dini mahnıları oxunur və yeni həyat başlanır.

**6.** Təhminə (film, 1993) (ssenari müəllifi);

Filmdə əsərin baş qəhramanları olan Zaur (Fəxrəddin Manafov) və Təhminənin (Meral Konrat) melodram həyatından bəhs edir. Onları mühafizəkar cəmiyyətlə qarşı-qarşıya gətirir. Tanınmış professor Zeynallının (Həsən Məmmədov) oğlu atası və anası olmayan Təhminəyə aşiq olur. Zaurun anası Zivər xanım (Zərnigar Ağakişiyeva) və atası buna qarşı çıxır.



7. [Otel otağı (film, 1998) ](ssenari müəllifi);




Filmdə qırmızı terrordan tutmuş, bugünkü günə qədər Azərbaycan ziyalılarının başlarına gətirilən müsibətlərdən, zaman dəyişdikcə cəmiyyətdə gedən ictimai-siyasi proseslərin burulğanında, xaosunda ziyalılarımızın fiziki və mənəvi təzyiqlərə məruz qalmalarından danışılır, insanların satqınlığı, onların vəziyyətdən, şəraitdən asılı olaraq cilddən-cildə girməsindən söhbət açılır.

8. Nigarançılıq (film, 1998) (ssenari müəllifi)




Filmdə harınlıq, yaltaqlıq, sədaqət, iman, fırıldaq hərəkətlər, hiylə, xəbislik, ikiüzlülük əks etdirilir. Cəlil Məmmədquluzadənin üç hekayəsinin motivləri əsasında çəkilmişdir.

9. Cavid ömrü (film, 2007) (ssenari müəllifi)




Filmdə ümumilikdə 72 aktyor rol alıb.

Film Azərbaycan kinosu tarixində dövlət sifarişi ilə müstəqil kino şirkəti tərəfindən çəkilmiş (prodüser filmi) ilk film hesab olunur. Filmin operatorlarından biri İrandan gəlib. Filmin aşkarlanması, üzünün çıxarılması və montajı İranda həyata keçirilib. Səsləndirmə və musiqi yazılışı Sankt-Peterburqda aparılıb.

Filmin çəkilişi iki ilə yaxın davam edib.

Film Hüseyn Cavidin əsərləri əsasında çəkilib.

10. Sübhün səfiri (film, 2012) (ssenari müəllifi)




Film Azərbaycan və Yaxın Şərq ədəbiyyatı tarixində silinməz izlər qoyan, Azərbaycan dramaturgiyasının banisi, böyük ictimai xadim Mirzə Fətəli Axundzadənin həyatı və çoxşaxəli irsindən bəhs edir. Filmdə dramaturqun həyatının 3 dövrü — uşaqlıq, gənclik və qocalığı canlandırılır.

# Əsərləri əsasında çəkilmiş bədii filmlər

1. Beşmərtəbəli evin altıncı mərtəbəsi (film, 1996) (Anarın eyniadlı romanı əsasında);




Filmin qəhrəmanları Zaurla (Elxan Cəfərov) Təhminədir (Sənubər İsgəndərli). Lakin onlar bir-birilərinə heç də vaxtında rast gəlməyiblər. Təhminə ərdədir, Zaurun ailəsi isə oğullarının evli qadınla birgə olmalarına qəti qarşıdırlar. Bütün etirazlara rəğmən onlar bir-birilərini dəlicəsinə sevirlər. Hər şeyin bir sonu olduğu kimi bu məhəbbətin də sonu vardır, lakin belə son heç Zaurun ağlına da gəlməzdi...

2. Sizə məktub var (film, 1998) (Anarın "Mən, sən, o və telefon" əsəri əsasında)
3. Aktyorun əsgisi (film, 2004) TRT. Türkiyə. (Anarın "Dantenin yubileyi" povesti əsasında) (ssenari müəllifi Atilla Engin, quruluşçu rejissor Feyzi Tuna, operator Koksan Kolkal, bəstəkar İlyas Mirzəyev. Rollarda Fərhan Şensoy, Suna Kesgin, Rasim Öztəkin və b.);

4. Tilsim (film, 2005) (Anarın "Vahimə" hekayəsi əsasında).




Əsərdə baş verən bir çox hadisələrin sonradan real olmaması şübhəsi yaranır. Yəqin bütün bunların hamısı "tilsim"lənmiş zamanın diktəsi imiş. Oruc Zeynalov (Muxtar İbadov) həkim psixiatrdır. Təmin olunmuş həyatı, Moskvada oxuyan oğlu, onu canından artıq sevən həyat yoldaşı Pakizə (Fərqanə Quliyeva), məşuqəsi, tibb bacısı Ofeliya (Lalə Mustafayeva), dostları, füsunkar bağı. Onun həyatı sadaladıqlarımızın fonunda sakit keçir, lakin müəyyən müddətədək, daha doğrusu bağı öz adına çıxarmaq istəyən Baləminin (Rəzzaq Məmmədov) meydana çıxmasına qədər...

5. "Ve telefon". Türkiyə. (Anarın "Mən, sən, o və telefon" əsəri əsasında); rejissor Nuran Evren.
6. Mən, sən, o və telefon (film, 2014) (Anarın eyniadlı əsəri əsasında)

## Ssenariləri əsasında çəkilmiş sənədli filmlər

1. Dədə Qorqud dühası (film, 1999) (ssenari müəllifi);
2. Dağ dağa rast gəlməz. (Mozalan süjeti) (ssenari müəllifi).



## Ssenariləri əsasında çəkilmiş televiziya filmləri

1. Dirsə xan oğlu Buğac boyu (film, 2000)

Dirsə xan oğlu Buğac boyu — "Dədə Qorqud dastanı"nın 12 boyundan biri olan "Dirsə xan oğlu Buğac boyu" əsasında çəkilmiş tammetrajl bədii televiziya filmi.

2. Salur Qazanın evi talandığı boy (film, 2001)



Salur Qazanın evi talandığı boy — film "Dədə Qorqud Oğuznamələri" filmlər silsiləsinin ikincisidir.

"Dədə Qorqud Dastanı"nın 12 boyunun çəkilməsi nəzərdə tutulan filmlər silsiləsinin yalnız iki boyu çəkilərək yarımçıq qalmışdır.

## Ssenariləri əsasında çəkilmiş cizgi filmlər

1. Basatın igidliyi (film, 1988) (ssenari müəllifi).

Film rejissor Vaqif Behbudov tərəfindən 1988-ci ildə çəkilmişdir. "Azərbaycan-telefilm"də istehsal edilmişdir. Filmdə müdrik Dədəd Qorqud gənc döyüşçünün cəsarətini görüb ona Basat adını verir. Basat əzazil Təpəgözə qalib gəlib uşaqları, anaları bəladan qurtarır.



## İdeyası əsasında çəkilmiş filmlər



1. Evləri göydələn yar (film, 2010) (ideya və süjet)

2010-cu ildə istehsal olunmuş Azərbaycan tammetrajlı bədii televiziya filmidir.

Bu film tamaşaçılar arasında böyük rəğbətlə qarşılanan "Evləri köndələn yar" televiziya tamaşasındakı hadisələrin 28 ildən sonrakı davamını göstərir.

Telman Adıgözəlovun son işidir.